**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**17 NOYABR 2020-ci il**
**(online)**

# QƏRAR EŞ № 174

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. Mustafayeva**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 43 üzvündən 41 üzvü

## E Ş İ D İ L D İ:

***UNEC rektoru prof. Ə.C. Muradov***

*Əsasnamə haqqında*

## Q Ə R A R A A L I N D I:

“UNEC 100” İnkişaf Strategiyasında nəzərdə tutulan məqsəd və hədəflərin həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətə dəstək olmaq, elmin inkişafına dair dövlət siyasətinin reallaşdırılmasında tədqiqat mərkəzlərinin iştirakını təmin etmək məqsədilə yaradılmış ***Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinin Əsasnaməsi*** təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C.MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. Mustafayeva**

ES-174

# AZƏRBAYCAN DÖVLƏT İQTISAD UNİVERSİTETİ (UNEC)

## Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinin

## Ə S A S N A M Ə S İ

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsi (bundan sonra Şöbə adlanacaq) Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) struktur bölməsidir, birbaşa UNEC rektoruna tabedir.

1.2. Şöbə UNEC rektorunun 14 sentyabr 2020-ci il tarixli 412/3/2020 saylı əmri ilə yaradılmışdır.

1.3. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununu və digər qanunlarını, "Elm haqqında" Qanunu, "Qrant haqqında" Qanunu, Azərbaycan Respublikası Təhsil Nazirinin və UNEC rəhbərliyinin əmr, sərəncam və təlimatlarını, UNEC Nizamnaməsini, UNEC Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

### 2. ŞÖBƏNİN ƏSAS MƏQSƏDİ

2.1. Elmin inkişafına dair dövlət siyasətinin reallaşdırılmasında tədqiqat mərkəzlərinin iştirakını təmin etmək;

2.2. UNEC-100 İnkişaf Strategiyasında nəzərdə tutulan məqsəd və hədəflərin həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətə dəstək olmaq:

2.2.1. universitetin elmi tədqiqatçı heyətinin sayının artırılması və peşəkarlığın yüksəldilməsi;

2.2.2. mərkəz və laboratoriyaların işinin təkmilləşdirilməsi, maddi-texniki bazalarının gücləndirilməsi;

2.2.3. elmin yeni istiqamətləri üzrə tədqiqat mərkəzlərinin, laboratoriyaların və konsaltinq mərkəzlərinin qurulması;

2.3. Dünyanın bir sıra universitetlərinin tədqiqat mərkəzləri ilə elmi əməkdaşlığı genişləndirmək, müasir elmi təcrübələrin mərkəzlərdə tətbiqinə nail olmaq;

2.4.Tədqiqat mərkəzlərinin potensialının artırılması məqsədilə xarici universitetlərdən alimlərin, tədqiqatçıların mərkəzlərə cəlb edilməsi;

2.5. Gənc tədqiqatçıların tədqiqat mərkəzlərinə cəlb olunması;

2.6. Magistr və doktorantların elmi-tədqiqat təcrübələrinin tədqiqat mərkəzlərində təşkilinin təmin edilməsi;

2.7. Elmin inkişafında UNEC tədqiqatçılarının rolunun artması;

2.8. Tədqiqat mərkəzlərinin apardığı elmi-tədqiqat işlərinin nəticələrinin beynəlxalq səviyyəli jurnallarda çap olunma intensivliyinin və sayının artırılması.

## 3. ŞÖBƏNİN ƏSAS VƏZİFƏLƏRİ

3.1. Universitetdə yaradılan tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi, təşkili və onların fəaliyyətinin dəstəklənməsi;

3.2. Yeni tədqiqat mərkəzlərinin (laboratoriyalarının) yaradılması və ləğv edilməsi, tədqiqat mərkəzlərinin elmi istiqamətlərinin və adlarının dəyişdirilməsi, yeni rəhbərlərin və mərkəz üzvlərinin təyinatı barədə təkliflər toplamaq və universitet rəhbərliyinə təqdim etmək;

3.3. Respublikanın və xarici ölkələrin universitetlərində fəaliyyət göstərən tədqiqat mərkəzləri ilə birgə elmi-tədqiqat işlərinin aparılması proqramlarında, qrant və layihələrində tədqiqat mərkəzlərinin iştirakını təmin etmək;

3.4. Universitetin inkişaf strategiyasına uyğun olaraq tədqiqat mərkəzlərinin fəaliyyəti haqqında hesabatlar və kitabçalar hazırlamaq;

3.5. Tədqiqatçı potensialını inkişaf etdirmək məqsədilə treninq və seminarların keçirilməsini təşkil etmək;

3.6. Tədqiqat mərkəzlərinin rəhbərlərini mütəmadi olaraq universitet rəhbərliyi tərəfindən qəbul edilən qərar, verilən əmr və göstərişlər barədə məlumatlandırmaq;

3.7. Tədqiqat Mərkəzlərini planlaşdırılan elmi tədbirlər haqqında məlumatlandırmaq və onların aidiyyəti elmi tədbirlərdə iştirakını təşkil etmək.

## 4. ŞÖBƏNİN HÜQUQLARI

4.1. Tədqiqat mərkəzlərinin və laboratoriyalarının elmi-tədqiqat işlərinin nəticələri haqqında mövcud qaydada müzakirələr, seminarlar, dəyirmi masalar və s. təşkil etmək;

4.2. Tədqiqat mərkəzlərinin rəhbərlərindən mərkəz tərəfindən yerinə yetirilən işlər barədə Şöbəyə müəyyən edilmiş qayda, forma və müddətdə hesabat təqdim edilməsini tələb etmək;

4.3. Elmi təşkilatlarla, o cümlədən xarici ölkələrin təşkilatları, alim və mütəxəssisləri ilə informasiya mübadiləsi aparmaq;

4.4. Fəaliyyət sahəsi ilə bağlı Respublika və beynəlxalq səviyyədə keçirilən elmi tədbirlərdə, təlim kurslarında, seminarlarda, konfranslarda və digər bu kimi tədbirlərdə iştirak etmək;

4.5. Səlahiyyətləri çərçivəsində elmi tədbirlər təşkil etmək;

4.6. Şöbənin funksional fəaliyyəti ilə bağlı və səlahiyyəti daxilində rəhbərliyin razılığı ilə müvafiq sahədən ekspertlərin və mütəxəssislərin cəlb olunması, digər struktur bölmələrindən zəruri sənədlərin təqdim edilməsini tələb etmək.

4.7. Öz səlahiyyəti daxilində əsasnamələrin, fəaliyyət planının və digər normativ xarakterli sənəd layihələrin işlənib tamamlanmasını icraçıdan tələb etmək.

## 5. ŞÖBƏNİN STRUKTURU, FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ MƏSULİYYƏTİ

5.1. Şöbənin strukturunu UNEC rektoru təsdiq edir;

5.2. Şöbəyə müdir rəhbərlik edir. Müdir UNEC rektorunun əmri ilə vəzifəyə təyin olunur və vəzifədən azad olunur;

5.3. Müdir:

5.3.1. şöbənin fəaliyyətini təşkil edir;

5.3.2. UNEC-in digər struktur bölmələri və aidiyyəti təşkilatlarla qarşılıqlı əlaqə yaradır;

5.3.3. şöbənin işçiləri arasında vəzifə bölgüsü aparır;

5.3.4. şöbə işçiləri tərəfindən əmək və icra intizamının yerinə yetirilməsinə nəzarət edir;

5.3.5. şöbəyə təhkim olunmuş dövlət əmlakının qorunmasını təmin edir;

5.3.6. əməyin təhlükəsizliyi, yangınəlehinə və sanitar-gigiyenik qaydalara riayət edilməsini təmin edir;

5.4. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrasına görə məsuliyyət daşıyır.